AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

QEYRİ-STASİONAR TƏNLİKLƏR ÜÇÜN AKUSTİK QOŞMALIQ ŞƏRTLİ VƏ YADDAŞ OPERATORLU QARIŞIQ MƏSƏLƏLƏR

İxtisas: 1211.01 – Diferensial tənliklər

Elm sahəsi: Riyaziyyat

İddiaçı: **Sevda Elxan qızı İsayeva**

Elmlər doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı - 2022

Dissertasiya işi AMEA Riyaziyyat və Mexanika İnstitutunun "Diferensial tənliklər" şöbəsində və Bakı Dövlət Universitetinin "Diferensial və inteqral tənliklər" kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: fizika-riyaziyyat elmləri doktoru, professor

Əkbər Bayram oğlu Əliyev

Rəsmi opponentlər: fizika-riyaziyyat elmləri doktoru, professor

Tahir Sədi oğlu Hacıyev

fizika-riyaziyyat elmləri doktoru, professor

Hamlet Fərman oğlu Quliyev

fizika-riyaziyyat elmləri doktoru, professor

Alik Malik oğlu Nəcəfov

riyaziyyat üzrə elmlər doktoru, professor

Mahir Mirzəxan oğlu Səbzəliyev

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.04 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri:

AMEA-nın müxbir üzvü, f.-r.e.d., professor

_____ **Misir Cumail oğlu Mərdanov**

Dissertasiya şurasının elmi katibi: f.-r.e.n.

_____ **Əbdürrəhim Fərman oğlu Quliyev**

Elmi seminarın sədri: akademik, f.-r.e.d., professor

_____ **Yusif Əbülfət oğlu Məmmədov**

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Dissertasiya işi qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli qarışıq məsələlərin və yaddaş operatorlu qeyri-xətti hiperbolik və parabolik tənliklər üçün qarışıq məsələlərin öyrənilməsinə həsr edilmişdir.

Maye və qaz mexanikasının bəzi məsələləri akustik sərhəd şərtli qarışıq məsələlərin həllinə gətirilir. Bu sahədə ilk riyazi tədqiqatlar J.T.Beale və S.I.Rosencrans tərəfindən aparılmışdır. Müəlliflər Γ sərhədli $\Omega \subset R^3$ oblastında mayenin burulğansız dalğa hərəkətini təsvir edən nəzəri model olaraq:

$$u_{tt} - \Delta u = 0 \qquad \Omega \times (0,\infty)\text{-da},$$

$$\frac{\partial u}{\partial \nu} = \delta_t \qquad \Gamma \times (0,\infty)\text{-da},$$

$$m\delta_{tt} + d\delta_t + k\delta = -\rho_0 u_t \qquad \Gamma \times (0,\infty)\text{-da}$$

tənliklərini tədqiq etmişlər; burada ρ_0, m, d, k fiziki baxımdan məlum kəmiyyətlərdir, $u(x,t)$ mayenin sürətlər potensialıdır və $\delta(x,t)$ zamanın t anında $x \in \Gamma$ nöqtəsinin sərhədin həmin nöqtədəki ν normalı istiqamətində yerdəyişməsidir. Bu model qurularkən fərz olunmuşdur ki, Γ səthinin hər bir nöqtəsi akustik dalğanın əlavə təzyiqinə yay kimi reaksiya göstərir və Γ səthinin müxtəlif nöqtələri bir-birinə təsir etmir. Belə səthlər lokal reaksiya göstərən səthlər adlanır.

Akustik sərhəd şərtli qarışıq məsələlərin öyrənilməsinə son zamanlar kifayət qədər çox sayda məqalə həsr edilmişdir. Bu məqalələrdə Dirixle və Neyman sərhəd şərtli qarışıq məsələlər üçün olan nəticələrə oxşar nəticələr əldə edilmişdir. Bəzi işlərdə sərhədin bir hissəsində akustik sərhəd şərtləri, qalan hissəsində isə bircins Dirixle şərti qoyulmuş qarışıq məsələlər öyrənilmişdir. A.T.Cousin, C.L.Frota və N.A.Larkin Kleyn-Gordon tipli tənliklərin ümumiləşmiş sistemi üçün sərhədin bir hissəsində akustik sərhəd şərtləri, qalan hissəsində isə bircins Dirixle şərti olan qarışıq məsələnin qlobal həllərinin varlığını, yeganəliyini və eksponensial

sürətlə azalmasını göstərmişlər. C.L.Frota, A.T.Cousin və N.A.Larkin qeyri-xətti dalğa tənliyi üçün $n=1$ olduqda həllin azalması haqqında nəticə əldə etmişlər; analoji nəticələr J.Y.Park, S.H.Park tərəfindən alınmışdır. C.L.Frota və J.A.Goldstein sərhədin bir hissəsində akustik sərhəd şərtləri, qalan hissəsində isə bircins Dirixle şərti olan qarışıq məsələnin qlobal həllərinin varlığını və yeganəliyini göstərmişlər. Bəzi işlərdə akustik sərhəd şərtləri bütün sərhəddə qoyulur. C.L.Frota, L.A.Medeyros və A.Vicente lokal reaksiya göstərməyən səthli oblastda akustik sərhəd şərtli qarışıq məsələnin qlobal həllərinin varlığını, yeganəliyini və eksponensial sürətlə azalmasını, həmçinin, monoton olmayan dissipasiya halında həllin varlığını və yeganəliyini göstərmişlər. J.M.Jeong, J.Y.Park və Y.H.Kang kvazixətti dalğa tənliyi üçün sərhədin bir hissəsində akustik sərhəd şərtləri, qalan hissəsində isə bircins Dirixle şərti olan qarışıq məsələnin həllərinin dağılmasını göstərmişlər. P.J.Graber və B.Said-Houari dalğa tənliyi üçün yarımxətti akustik sərhəd şərtli qarışıq məsələnin lokal və qlobal həllərinin varlığı, həllin azalması və dağılması haqqında nəticələri əldə etmişlər.

Fizika və biologiyanın bəzi sahələrində qoşmalıq məsələləri yaranır. R. Dautray və J.L. Lions tərəfindən hiperbolik tənliklər üçün qoşmalıq məsələlər tədqiq olunmuş və xətti məsələ halında həllin yeganıliyi və hamarlığı göstərilmişdir. J.E.Muñoz Rivera və H.Portillo Oquendo özülüelastik dalğa tənlikləri üçün qoşmalıq məsələləri tədqiq etmiş və həllin eksponensial sürətlə azalmasını göstərmişlər. D.Andrade, L.H.Fatori və J.E.Muñoz Rivera qoşmalıq məsələ üçün qlobal həllin varlığı və eksponensial sürətlə azalmasını göstərmişlər. J.J.Bae bir komponentin bərkidildiyi, digəri isə özülüelastik mayedə olan qoşmalıq məsələ üçün həllin eksponensial sürətlə azalmasını göstərmişdir. W.D.Bastos və C.A.Raposo friksion dissipasiyalı qoşmalıq məsələyə baxmış və bu məsələ üçün həllin varlığı və yeganəliyi, həmçinin tam enerjinin eksponensial dayanıqlılığı haqqında nəticələri almışlar. Ə.B.Əliyev, E.H.Məmmədhəsənov sərhəd şərtlərinin və qoşmalıq şərtlərin dinamik requlyarlaşdırılması metodu ilə qoşmalıq məsələ üçün həllin varlığı və yeganəliyi haqqında nəticələri almışlar.

Lakin bu işlərin heç birində akustik qoşmalıq şərtli qarışıq məsələlərə baxılmamışdır, belə ki, maye və qaz mexanikasının bir sıra problemləri bu cür qarışıq məsələlərin həllinə gətirilir. Dissertasiya işində qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli belə qarışıq məsələlərə baxılır.

Yaddaş operatorlu diferensial tənliklər, xüsusilə də histerezisli tənliklər xüsusi törəməli qeyri-xətti diferensial tənliklər arasında mühüm əhəmiyyət kəsb edir. Histerezis operator anlayışı ilk dəfə M.A.Krasnoselski və A.V.Pokrovski tərəfindən daxil edilmişdir. Bu cür qeyri-xətti operatorlu xüsusi törəməli diferensial tənliklər üçün olan Koşi məsələsi və başlanğıc-sərhəd məsələlərinin tədqiqi trivial məsələ deyil. Əgər yaddaş operatoru zamana görə diferensial işarəsi altındadırsa, onda belə yaddaş operatorlu tənliklərin tədqiqi xüsusilə çətin olur. A.Q.Sveşnikov, A.B.Alşin, M.O.Korpusov və Y.D.Pletnerin monoqrafiyasında qeyri-xətti yaddaş operatoru t dəyişəninə görə diferensial işarəsi altında olduqda kvazixətti Sobolev tənlikləri üçün qlobal həllərin varlığı və yoxluğu ətaflı tədqiq olunub. Bu istiqamətdə aparılan növbəti tədqiqatlardan M.O.Korpusov və A.Q.Sveşnikovun işlərini göstərmək olar. Yaddaş operatorlu uyğun məsələlər A.Visintin və M.Hilpert tərəfindən qeyri-xətti yarımqrup nəzəriyyəsinin nəticələrini tətbiq etməklə tədqiq olunmuşdur. P.Krejcinin işlərində yarımxətti və kvazixətti hiperbolik tənliklər üçün analoji məsələlərin periodik həllərinin varlığı, yeganəliyi və asimptotik xarakteri öyrənilib. Dissertasiya işində yaddaş operatoru zamana görə diferensial işarəsi altında olan hal üçün yaddaş operatorlu başlanğıc-sərhəd məsələləri daha ətraflı tədqiq olunmuşdur.

Dissertasiya işi əsasən iki istiqaməti əhatə edir.

1. Qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli qarışıq məsələlər öyrənilir. Belə məsələlər üçün minimal qlobal attraktorun varlığının isbatı mühüm əhəmiyyət kəsb edir.
2. Zamana görə diferensial işarəsi altında olan yaddaş operatorlu qeyri-xətti hiperbolik və parabolik tənliklər üçün başlanğıc-sərhəd məsələləri öyrənilir.

Tədqiqatın obyekt və predmeti. Dissertasiya işinin əsas obyekti qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli qarışıq məsələlər və yaddaş operatorlu qeyri-xətti hiperbolik və parabolik tənliklər üçün başlanğıc-sərhəd məsələləridir. Tədqiqatın predmeti qeyri-xətti fokuslanmış və fokuslanmamış mənbələrlə olan dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli qarışıq məsələlərin və yaddaş operatorlu və histerezisli qeyri-xətti hiperbolik və parabolik tənliklər üçün başlanğıc-sərhəd məsələlərinin həllərinin asimptotikasının öyrənilməsidir.

Tədqiqatın məqsəd və vəzifələri. Dissertasiya işinin əsas məqsədi və vəzifəsi maye və qaz mexanikasının bəzi məsələlərinin gətirildiyi qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli qarışıq məsələlərin, həmçinin müxtəlif bioloji, texnoloji və kimyəvi proseslərin təsviri zamanı yaranan yaddaş operatorlu və histerezisli qeyri-xətti hiperbolik və parabolik tənliklər üçün başlanğıc-sərhəd məsələlərinin tədqiqidir.

Tədqiqat metodları. Dissertasiya işində diferensial tənliklər nəzəriyyəsinin, funksional analizin, yarımqruplar nəzəriyyəsinin metodları, o cümlədən, kompaktlıq üsulu, daxilolma teoremləri, sıxılan inikas prinsipi, diskretizasiya üsulu istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar:

- fokuslanmış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin həllərinin varlığı və yeganəliyinin tədqiqi;
- fokuslanmış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin həllərinin asimptotikasının tədqiqi;
- fokuslanmış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün qeyri-xətti akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin həllərinin varlığının tədqiqi;
- fokuslanmış mənbələrlə olan qeyri-xətti güclü dissipativ dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin həllərinin varlığının tədqiqi;

- fokuslanmamış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin həllərinin varlığının tədqiqi;
- fokuslanmamış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin həllərinin asimptotikasının tədqiqi;
- fokuslanmamış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin minimal qlobal attraktorunun varlığının tədqiqi;
- yaddaş operatorlu yarımxətti hiperbolik və kvazixətti parabolik tənliklər üçün başlanğıc-sərhəd məsələlərinin həllərinin varlığı və asimptotikasının tədqiqi;
- yaddaş operatorlu yarımxətti hiperbolik tənliklər sistemi üçün qarışıq məsələnin həllərinin varlığının tədqiqi;
- yaddaş operatorlu yarımxətti hiperbolik tənlik üçün akustik sərhəd şərtli qarışıq məsələnin zəif həllərinin varlığının tədqiqi.

Tədqiqatın elmi yeniliyi. Dissertasiya işində aşağıdakı əsas nəticələr alınmışdır:

- fokuslanmış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin lokal zəif və lokal güclü həllərinin varlığı və yeganəliyi isbat olunmuşdur;
- $p \le \min\{q_1, q_2\}$ olduqda fokuslanmış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin qlobal zəif həllərinin varlığı haqqında nəticə, $p > \max\{q_1, q_2\}$ olduqda isə bu məsələnin zəif həllərinin sonlu zaman müddətində dağılması haqqında nəticə alınmışdır;
- fokuslanmış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün qeyri-xətti akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin lokal zəif həllərinin varlığı və yeganəliyi isbat olunmuşdur;
- fokuslanmış mənbələrlə olan qeyri-xətti güclü dissipativ dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin lokal zəif həllərinin varlığı isbat olunmuşdur;
- fokuslanmamış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin qlobal

güclü həllərinin varlığı, yeganəliyi və eksponensial sürətlə azalması isbat olunmuşdur;

- fokuslanmamış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin minimal qlobal attraktorunun varlığı isbat olunmuşdur;
- yaddaş operatorlu yarımxətti hiperbolik tənlik üçün başlanğıc-sərhəd məsələsinin həllinin varlığı və yeganəliyi isbat olunmuşdur, bu məsələ üçün minimal qlobal attraktorun varlığı haqqında nəticə alınmışdır;
- yaddaş operatorlu kvazixətti parabolik tənlik üçün başlanğıc-sərhəd məsələsinin həllərinin varlığı haqqında teorem isbat olunmuşdur və histerezis operator halı üçün həllin yeganəliyi haqqında nəticə alınmışdır;
- yaddaş operatorlu dörd tərtibli yarımxətti hiperbolik tənlik üçün başlanğıc-sərhəd məsələsinin həllinin varlığı isbat olunmuşdur, bu məsələ üçün minimal qlobal attraktorun varlığı haqqında nəticə alınmışdır;
- yaddaş operatorlu yarımxətti hiperbolik tənliklər sistemi üçün qarışıq məsələnin həllərinin varlığı haqqında nəticə alınmışdır;
- yaddaş operatorlu Timoşenko sistemi üçün qarışıq məsələnin həllərinin varlığı və yeganəliyi isbat olunmuşdur;
- yaddaş operatorlu yarımxətti hiperbolik tənlik üçün akustik sərhəd şərtli qarışıq məsələnin zəif həllərinin varlığı haqqında nəticə alınmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya işində alınmış nəticələr yenidir, nəzəri və tətbiqi əhəmiyyət kəsb edir. Bu nəticələr maye və qaz mexanikasının bir sıra məsələlərində, həmçinin müxtəlif bioloji, texnoloji və kimyəvi proseslərdə istifadə oluna bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas nəticələri Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin "Diferensial və inteqral tənliklər" kafedrasının seminarlarında (rəhbər f.-r.e.d. Y.T.Mehrəliyev), Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin seminarlarında (rəhbər f.-r.e.d., prof. N.Ş.İsgəndərov), Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və

kibernetika fakültəsinin “Riyazi fizika tənlikləri” kafedrasının seminarlarında (rəhbər f.-r.e.d., akad. Y.Ə.Məmmədov), AMEA Riyaziyyat və Mexanika İnstitutunun “Diferensial tənliklər” şöbəsinin seminarlarında (rəhbər f.-r.e.d., prof. Ə.B.Əliyev), AMEA Riyaziyyat və Mexanika İnstitutunun ümuminstitut seminarlarında (rəhbər AMEA-nın müxbir üzvü, f.-r.e.d., prof. M.C.Mərdanov) məruzə edilmişdir. Bundan əlavə aşağıdakı elmi konfranslarda məruzə edilmişdir: AMEA Riyaziyyat və Mexanika İnstitutunun 50 illik yubileyinə həsr olunmuş riyaziyyat və mexanika üzrə beynəlxalq konfransda (Bakı, 2009), Türk Dövlətlərinin Dünya Riyaziyyat Cəmiyyətinin III Konqresində (Alma-ata, 2009), ”Funksional-diferensial tənliklər və onların tətbiqləri” IV beynəlxalq konfransında (Maxaçqala, 2009), akad. F.Q.Maqsudovun 80 illik yubileyinə həsr olunmuş ”Spektral nəzəriyyə və onun tətbiqləri” beynəlxalq konfransında (Bakı, 2010), ”Qeyri-xətti analiz və ekstremal məsələlər” beynəlxalq məktəb-seminarında (İrkutsk, 2010), akad. Z.İ.Xəlilovun 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2011), ”Funksional-diferensial tənliklər və onların tətbiqləri” VI beynəlxalq elmi konfransında (Maxaçqala, 2013), AMEA Riyaziyyat və Mexanika İnstitutunun 55 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2014), ”Prof. Z.A.Skopetsin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq Kolmoqorov mütaliələri - XIV” V beynəlxalq elmi konfransında (Koryajma, 2017), ”Riyaziyyat və informatikanın fundamental və tətbiqi məsələləri” XII beynəlxalq konfransında (Maxaçqala, 2017), Türk Dünyası Riyaziyyat Cəmiyyətinin VI konqresində (Astana, 2017), S.Q.Kreynin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Voronej, 2017), professor Q.A.İsaxanlının 70 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2018), ”Texniki elmlərin inkişafında son nailiyyətlər və uğurlar” beynəlxalq elmi-praktik konfransında (Krasnodar, 2018), Sənaye Tətbiqli İdarəetmə və Optimallaşdırma üzrə VI Beynəlxalq Konfransda (Bakı, 2018), Gürcü Riyaziyyat İttifaqının IX beynəlxalq konfransında (Batumi-Tbilisi, 2018), ”Müasir riyaziyyat və onun tətbiqləri” beynəlxalq elmi-praktik konfransında (Qroznı, 2018),

L.D.Kudryavtsevin 95 illik yubileyinə həsr olunmuş ”Funksional fəzalar” V beynəlxalq konfransında (Moskva, 2018), akademik Azad Mirzəcanızadənin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2018), akademik Mirabbas Qasımovun 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2019), Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş VIII Beynəlxalq Avrasiya Konfransında (IECMSA-2019) (Bakı, 2019), Riyaziyyat və kompüter elmləri fakültəsinin 55 illik yubileyinə həsr olunmuş XIII beynəlxalq konfransda (Maxaçqala, 2019), “Riyazi modelləşdirmə və informasiya texnologiyaları” IV Ümumrusiya beynəlxalq konfransında (Sıktıvkar, 2020).

Müəllifin şəxsi töhfəsi. Alınan bütün nəticələr şəxsən müəllifə məxsusdur.

- $p \le \min\{q_1, q_2\}$ olduqda fokuslanmış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin qlobal zəif həllərinin varlığı haqqında nəticə, $p > \max\{q_1, q_2\}$ olduqda isə bu məsələnin zəif həllərinin sonlu zaman müddətində dağılması haqqında nəticə alınmışdır;
- fokuslanmamış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin minimal qlobal attraktorunun varlığı haqqında nəticə alınmışdır;
- yaddaş operatorlu yarımxətti hiperbolik tənlik üçün başlanğıc-sərhəd məsələsinin minimal qlobal attraktorunun varlığı haqqında nəticə alınmışdır.

Müəllifin nəşrləri. Dissertasiya üzrə müəllifin 53 elmi işi: Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın tövsiyə etdiyi nəşriyyatlarda 21 məqaləsi, 1 konfrans materialı, 31 tezisi nəşr olunmuşdur.

Dissertasiya işinin yerinə yetririldiyi təşkilatın adı. Bakı Dövlət Universiteti və AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu.

Dissertasiyanın strukturu və həcmi (işarə ilə, bölmələrin hər birinin ayrılıqda həcmi qeyd olunmaqla). Titul səhifə – 389 işarə, mündəricat – 3321 işarə, giriş – 76000 işarə, dissertasiyanın əsas məzmunu – 388000 işarə (I fəsil – 136000, II fəsil – 76000, III

fəsil – 108000, IV fəsil – 68000), nəticə – 1328 işarə və istifadə olunmuş ədəbiyyat siyahısı – 21886 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi 490924 işarə sayıdır.

DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işi girişdən, dörd fəsildən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Giriş hissəsində dissertasiya mövzusunun aktuallığı əsaslandırılmış və onun işlənmə dərəcəsi göstərilmişdir, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəyi qeyd olunmuşdur, həmçinin işin aprobasiyası haqqında məlumat verilmişdir.

Əsas nəticələri şərh etməzdən əvvəl bəzi işarələmə və tərifləri daxil edək.

R^N – N - ölçülü Evklid fəzası $\left(R^1 = R\right)$;

$x = \left(x_1, \dots, x_N\right)$ – R^N-də nöqtə;

$R^+ = \left\{t \in R^1 : t > 0\right\}$;

Z^+ – mənfi olmayan tam ədədlər çoxluğu;

Ω – R^N-də oblast;

Γ – Ω oblastının sərhədi;

$Q_T = \left\{(x,t) : x \in \Omega, t \in (0,T)\right\}$;

$u_x = \left(u_{x_1}, \dots, u_{x_N}\right)$;

$u_x \upsilon_x = \sum_{i=1}^{N} u_{x_i} \upsilon_{x_i}$;

$D(\Omega)$ – kompakt daşıyıcısı Ω-dan olan sonsuz diferensiallanan funksiyalar fəzası;

$D'(\Omega)$ – $D(\Omega)$ fəzasına qoşma olan fəza – Ω-da paylanmalar fəzası;

$L^p(\Omega)$ – Ω-da $dx = dx_1 \dots dx_N$ ölçüsünə görə p dərəcədən cəmlənən funksiyalar fəzası, $\|f\|_{L^p(\Omega)} = \left(\int_\Omega |f(x)|^p \, dx \right)^{1/p}$;

$L^\infty(\Omega)$ – Ω-da sanki hər yerdə məhdud funksiyalar fəzası, $\|f\|_{L^\infty(\Omega)} = \operatorname{ess\,sup}_{x\in\Omega} |f(x)|$;

$W^{m,p}(\Omega) = \{ \upsilon : D^\alpha \upsilon \in L^p(\Omega), |\alpha| \le m \}$,

$$\|\upsilon\|_{W^{m,p}(\Omega)} = \left(\sum_{|\alpha|\le m} \|D^\alpha \upsilon\|^p_{L^p(\Omega)} \right)^{1/p}, \; D^\alpha \upsilon = \frac{\partial \upsilon^{\alpha_1+\dots+\alpha_N}}{\partial x_1^{\alpha_1} \dots \partial x_N^{\alpha_N}},$$

$\alpha = (\alpha_1, \dots, \alpha_N)$, $|\alpha| = \alpha_1 + \dots + \alpha_N$, $\alpha_i \in Z^+$, $i = 1, \dots, N$;

$W_0^{m,p}(\Omega)$ – $D(\Omega)$ fəzasının $W^{m,p}(\Omega)$-ya qapanması;

$H^m(\Omega) = W^{m,2}(\Omega)$;

$H_0^m(\Omega) = W_0^{m,2}(\Omega)$;

$H^{-m}(\Omega) = \left(H_0^m(\Omega)\right)' = W^{-m,2}(\Omega)$;

$H^s(\Omega)$ – s kəsr tərtibli Sobolev fəzası;

$C^k(\overline{\Omega})$, $k \in Z^+$ – $\overline{\Omega}$-da k dəfə kəsilməz diferensiallanan funksiyalar fəzası;

X – Banax fəzası olarsa, onda:

$L^p(0,T;X) = \{ f : f$ – $[0,\mathrm{T}] \to X$ ölçülən inikasdır,

$1 \le p < \infty$ olduqda $\left(\int_0^T \|f(t)\|_X^p \, dt \right)^{1/p} < \infty$,

$p = \infty$ olduqda $\left. \operatorname{sup\,ess}_{t\in(0,T)} \|f(t)\|_X < \infty \right\}$;

$D((0,T);X)$ – kompakt daşıyıcısı $(0,T)$-dan olan $(0,T) \to X$ C^∞-inikaslar fəzası;

$C^k([0,T];X)$, $k \in Z^+$ – k dəfə kəsilməz diferensiallanan $[0,T] \to X$ funksiyalar fəzası;
$\mathrm{M}(\Omega; C^0([0,T]))$ – Ω-dan $C^0([0,T])$-yə təsir edən ölçülən funksiyalar fəzası;
$L(X;Y)$ – X topoloji vektor fəzasından Y topoloji vektor fəzasına təsir edən kəsilməz xətti inkaslar fəzası;
$D'((0,T);X) = L(D(0,T);X)$ – $(0,\mathrm{T})$ -da paylanmalar fəzası (X -dən qiymətlər alan);
$H(\Delta,\Omega) = \{ u \in H^1(\Omega) : \Delta u \in L^2(\Omega) \}$,
$\|u\|_{H(\Delta,\Omega)} \equiv \|u\|_{\Delta,\Omega} = \left(\|u\|^2_{H^1(\Omega)} + \|\Delta u\|^2_{L^2(\Omega)} \right)^{1/2}$;

$(u,\upsilon)_i = \int\limits_{\Omega_i} u(x)\upsilon(x)dx$, $\|u\|_i = \left(\int\limits_{\Omega_i} (u(x))^2 dx \right)^{1/2}$ – $L^2(\Omega_i)$-də skalyar hasil və norma, burada Ω_i R^N-də oblastdır $(i = 1,2)$;

$(\delta,\theta)_\Gamma = \int\limits_{\Gamma} \delta(x)\theta(x)d\Gamma$, $\|\delta\|_\Gamma = \left(\int\limits_{\Gamma} (\delta(x))^2 d\Gamma \right)^{1/2}$ – $L^2(\Gamma)$-da skalyar hasil və norma, burada Γ Ω oblastının sərhədidir;
γ_0 : $H^1(\Omega) \to H^{1/2}(\Gamma)$ inikası – sıfır tərtibli iz operatoru;
$\gamma_1 : H(\Delta,\Omega) \to H^{-1/2}(\Gamma)$ inikası – Neyman iz operatoru;
$H^1_{\Gamma_1}(\Omega) = \{ u \in H^1(\Omega) : \gamma_0(u) = 0$ s.h.y. Γ_1-da$\}$, burada Γ_1 Ω oblastının Γ sərhədinin bir hissəsidir;

$$\|u\|_{H^1_{\Gamma_1}(\Omega_1)} = \left(\sum_{i=1}^{N} \int\limits_{\Omega_1} \left(\frac{\partial u}{\partial x_i} \right)^2 dx \right)^{1/2}.$$

Bəzi anlayışların məlum tərifləri daxil edək.

Tərif 1. Əgər $\{S(t)\}_{t \ge 0}$ (X,d) metrik fəzasında təyin olunmuş yarımqrupdursa, onda bu yarımqrupu doğuran dinamik

sistemə nəzərən invariant olan və ixtiyari məhdud $B \subset X$ çoxluğu üçün

$$\lim_{t\to\infty} \sup_{\upsilon\in B} \inf_{u\in A} d(S(t)\upsilon,\, u) = 0$$

münasibətini ödəyən ən kiçik boş olmayan məhdud qapalı $A \subset X$ çoxluğu $\{S(t)\}_{t\geq 0}$ yarımqrupunun minimal qlobal attraktoru adlanır.

Tərif 2. Tutaq ki, $\{S(t)\}_{t\geq 0}$ (X, d) metrik fəzasında təyin olunmuş yarımqrupdur, $B_0 \subset X$ və ixtiyari $B \subset X$ məhdud çoxluğu üçün elə $t_1(B)$ ədədi vardır ki, $\forall t \geq t_1(B)$ üçün

$$S(t)B \subset B_0$$

ödənilir. Onda B_0 uducu çoxluq adlanır.

Tərif 3. Tutaq ki, $\{S(t)\}_{t\geq 0}$ (X, d) metrik fəzasında təyin olunmuş yarımqrupdur və ixtiyari məhdud $B \subset X$ çoxluğu üçün (bu şərtlə ki, $\bigcup_{t\geq 0} S(t)B$ çoxluğu (X, d)-də məhdud olsun)

$$\{S(t_k)\upsilon_k\}_{k=1}^{\infty} \; (t_k \to \infty,\; \upsilon_k \in B)$$

şəkilli ixtiyari ardıcıllığın yığılan altardıcıllığı var. Onda $\{S(t)\}_{t\geq 0}$ asimptotik kompakt yarımqrup adlanır.

Tərif 4. Tutaq ki, X Banax fəzasında zamandan asılı $u(t)$ və $w(t)$ skalyar dəyişənləri ilə xarakterizə olunan sistem verilib və $w(t)$ zamanın hər bir $t \in [0, T]$ anında yalnız $u(t)$-dən yox, həm də $u(t)$-nin əvvəlki qiymətlərindən, yəni $u|_{[0,t]}$-dən asılıdır:

$$\forall t \in [0, T] \text{ üçün } w(t) = [\mathsf{F}(u, \xi^0)](t),$$

burada $\xi^0 \in R^1$ verilmiş ədəddir. Onda $\mathsf{F}(u, \xi^0)$ X fəzasında yaddaş operatoru adlanır.

Tərif 5. Tutaq ki, verilmiş $\xi^0 \in R^1$ üçün $\mathsf{F}(u, \xi^0): u \to w$ yaddaş operatoru

$$\begin{cases} \forall t \in [0,T] \text{ üçün } [0,t]-\text{da } u_1 = u_2 \text{ olan} \\ \forall u_1,\, u_2 \in \mathrm{Dom}(\mathsf{F}) \text{ üçün } [\mathsf{F}(u_1)](\cdot,t) = [\mathsf{F}(u_2)](\cdot,t) \end{cases}$$

şərtini ödəyir və $(u(t), w(t))$ cütünün trayektoriyası ixtiyari artan $\varphi : [0,T] \to [0,T]$ diffeomorfizminə nəzərən invariantdır, yəni $[0,T]$-da

$$\mathsf{F}(u \circ \varphi, \xi^0) = \mathsf{F}(u, \xi^0) \circ \varphi$$

bərabərliyi ödənilir, başqa sözlə,

$$u \to w$$

olarsa,

$$u \circ \varphi \to w \circ \varphi$$

doğru olur. Onda $\mathsf{F}(u, \xi^0) : u \to w$ yaddaş operatoru histerezis operator adlanır.

Dissertasiya işinin məzmununun qısa şərhinə keçək.

Birinci fəsil altı paraqrafdan ibarıtdir. Birinci fəslin birinci paraqrafında fokuslanmış qeyri-xətti mənbələrlə olan və akustik qoşmalıq şərtli aşağıdakı qarışıq məsələyə baxılıb:

$$u_{tt} - \Delta u + |u_t|^{q_1 - 1} u_t = |u|^{p-1} u \quad \Omega_1 \times (0,\infty)\text{-da}, \tag{1}$$

$$\upsilon_{tt} - \Delta \upsilon + |\upsilon_t|^{q_2 - 1} \upsilon_t = |\upsilon|^{p-1} \upsilon \quad \Omega_2 \times (0,\infty)\text{-da}, \tag{2}$$

$$M\delta_{tt} + D\delta_t + K\delta = -u_t \quad \Gamma_2 \times (0,\infty)\text{ -da}, \tag{3}$$

$$u = 0 \quad \Gamma_1 \times (0,\infty)\text{ -da}, \tag{4}$$

$$u = \upsilon,\ \delta_t = \frac{\partial u}{\partial \nu} - \frac{\partial \upsilon}{\partial \nu} \quad \Gamma_2 \times (0,\infty)\text{-da}, \tag{5}$$

$$u(x,0) = u_0(x),\ u_t(x,0) = u_1(x),\ x \in \Omega_1, \tag{6}$$

$$\upsilon(x,0) = \upsilon_0(x),\ \upsilon_t(x,0) = \upsilon_1(x),\ x \in \Omega_2, \tag{7}$$

$$\delta(x,0) = \delta_0(x), \delta_t(x,0) = \frac{\partial u_0}{\partial \nu} - \frac{\partial \upsilon_0}{\partial \nu} \equiv \delta_1(x),\ x \in \Gamma_2, \tag{8}$$

burada $\Omega \subset R^n\ (n \geq 1)$ hamar Γ_1 sərhədli məhdud oblast, $\Omega_2 \subset \Omega$ hamar Γ_2 sərhədli altoblast və $\Omega_1 = \Omega \setminus (\Omega_2 \bigcup \Gamma_2)$ $\Gamma = \Gamma_1 \bigcup \Gamma_2$ sərhədli altoblastdır, belə ki, $\Gamma_1 \bigcap \Gamma_2 = \varnothing$ şərti ödənilir; $\nu(x)$ Γ

sərhədinin $x \in \Gamma$ nöqtəsindəki xarici vahid normalıdır; $M, D, K : \Gamma_2 \to R$, $u_0, u_1 : \Omega_1 \to R$, $\upsilon_0, \upsilon_1 : \Omega_2 \to R$, $\delta_0 : \Gamma_2 \to R$ verilmiş funksiyalardır; $p > 1$, $q_i > 1$, $i = 1, 2$.

(1)-(8) məsələsinin zəif və güclü həllərinin tərifləri daxil olunub.

Tərif 6. Tutaq ki,

$$u : \Omega_1 \times [0,T] \to R,\ \upsilon : \Omega_2 \times [0,T] \to R,\ \delta : \Gamma_2 \times [0,T] \to R,$$

$$u \in L^\infty\left(0,T; H^1_{\Gamma_1}(\Omega_1)\right),\ \upsilon \in L^\infty\left(0,T; H^1(\Omega_2)\right),$$

$$\gamma_0(u) = \gamma_0(\upsilon) \quad \Gamma_2 \times (0,T)\text{-da s.h.y.},$$

$$u_t \in L^\infty\left(0,T; L^2(\Omega_1)\right) \cap L^{q_1+1}\left(\Omega_1 \times (0,T)\right),$$

$$\upsilon_t \in L^\infty\left(0,T; L^2(\Omega_2)\right) \cap L^{q_2+1}\left(\Omega_2 \times (0,T)\right),$$

$$\delta, \delta_t \in L^\infty\left(0,T; L^2(\Gamma_2)\right),$$

Γ_2-də $\Phi = \Psi$ şərtini ödəyən $\forall \Phi \in H^1_{\Gamma_1}(\Omega_1)$, $\forall \Psi \in H^1(\Omega_2)$ üçün $D'(0,T)$-də paylanmalar mənasında

$$\tfrac{d}{dt}(u_t, \Phi)_1 + (\nabla u, \nabla \Phi)_1 + \left(|u_t|^{q_1-1} u_t, \Phi\right)_1 + \tfrac{d}{dt}(\upsilon_t, \Psi)_2 + (\nabla \upsilon, \nabla \Psi)_2 +$$
$$+ \left(|\upsilon_t|^{q_2-1} \upsilon_t, \Psi\right)_2 - \left(\delta_t, \gamma_0(\Phi)\right)_{\Gamma_2} = \left(|u|^{p-1} u, \Phi\right)_1 + \left(|\upsilon|^{p-1} \upsilon, \Psi\right)_2$$

bərabərliyi və $\forall e \in L^2(\Gamma_2)$ üçün $D'(0,T)$-də paylanmalar mənasında

$$\tfrac{d}{dt}\left(\gamma_0(u) + M\delta_t, e\right)_{\Gamma_2} + \left(D\delta_t + K\delta, e\right)_{\Gamma_2} = 0$$

bərabərliyi ödənilir, həmçinin:

$$u(x,0) = u_0(x),\ u_t(x,0) = u_1(x) \quad \Omega_1\text{-də s.h.y.},$$

$$\upsilon(x,0) = \upsilon_0(x),\ \upsilon_t(x,0) = \upsilon_1(x) \quad \Omega_2\text{-də s.h.y.},$$

$$\delta(x,0) = \delta_0(x),\ \delta_t(x,0) = \delta_1(x) \quad \Gamma_2\text{-də s.h.y.}$$

Onda $\left(u(x,t), \upsilon(x,t), \delta(x,t)\right)$ funksiyalar üçlüyü (1)-(8) məsələsinin zəif həlli adlanır.

Tərif 7. Tutaq ki,

$$u : \Omega_1 \times [0,T] \to R,\ \upsilon : \Omega_2 \times [0,T] \to R,\ \delta : \Gamma_2 \times [0,T] \to R,$$

$$u \in L^\infty\left(0,T; H^1_{\Gamma_1}(\Omega_1)\right),\ u_t \in L^\infty\left(0,T; H^1_{\Gamma_1}(\Omega_1)\right) \cap L^{q_1+1}\left(\Omega_1 \times [0,T]\right),$$

$$u_{tt} \in L^{\infty}\left(0,T;L^{2}\left(\Omega_{1}\right)\right),$$
$$\upsilon \in L^{\infty}\left(0,T;H^{1}\left(\Omega_{2}\right)\right),\ \upsilon_{t} \in L^{\infty}\left(0,T;H^{1}\left(\Omega_{2}\right)\right)\bigcap L^{q_{2}+1}\left(\Omega_{2}\times\left[0,T\right)\right),$$
$$\upsilon_{tt} \in L^{\infty}\left(0,T;L^{2}\left(\Omega_{2}\right)\right),$$
$$u\left(t\right)\in H\left(\Delta,\Omega_{1}\right),\ \upsilon\left(t\right)\in H\left(\Delta,\Omega_{2}\right)\quad \left(0,T\right)\text{-də s.h.y.},$$
$$\delta,\delta_{t},\delta_{tt} \in L^{\infty}\left(0,T;L^{2}\left(\Gamma_{2}\right)\right),$$

və

$$u_{tt}-\Delta u+\left|u_{t}\right|^{q_{1}-1}u_{t}=\left|u\right|^{p-1}u \qquad \Omega_{1}\times\left(0,T\right)\text{-də s.h.y.},$$
$$\upsilon_{tt}-\Delta\upsilon+\left|\upsilon_{t}\right|^{q_{2}-1}\upsilon_{t}=\left|\upsilon\right|^{p-1}\upsilon \qquad \Omega_{2}\times\left(0,T\right)\text{-də s.h.y.},$$
$$\gamma_{0}\left(u_{t}\right)+M\delta_{tt}+D\delta_{t}+K\delta=0,\ \gamma_{0}\left(u\right)=\gamma_{0}\left(\upsilon\right)\quad \Gamma_{2}\times\left(0,T\right)\text{-də s.h.y.},$$

$\forall\varphi\in H^{1}_{\Gamma_{1}}\left(\Omega_{1}\right)$ üçün:

$$\left\langle\gamma_{1}\left(u\left(t\right)-\upsilon\left(t\right)\right),\gamma_{0}\left(\varphi\right)\right\rangle_{H^{-1/2}\left(\Gamma_{2}\right)\times H^{1/2}\left(\Gamma_{2}\right)}=\left(\delta_{t}\left(t\right),\gamma_{0}\left(\varphi\right)\right)_{\Gamma_{2}}\quad \left(0,T\right)\text{-də s.h.y.},$$
$$u\left(x,0\right)=u_{0}\left(x\right),\ u_{t}\left(x,0\right)=u_{1}\left(x\right)\quad \Omega_{1}\text{-də s.h.y.},$$
$$\upsilon\left(x,0\right)=\upsilon_{0}\left(x\right),\ \upsilon_{t}\left(x,0\right)=\upsilon_{1}\left(x\right)\quad \Omega_{2}\text{-də s.h.y.},$$
$$\delta\left(x,0\right)=\delta_{0}\left(x\right),\ \delta_{t}\left(x,0\right)=\delta_{1}\left(x\right)\quad \Gamma_{2}\text{-də s.h.y.}$$

Onda $\left(u\left(x,t\right),\upsilon\left(x,t\right),\delta\left(x,t\right)\right)$ funksiyalar üçlüyü (1)-(8) məsələsinin güclü həlli adlanır.

(1)-(8) məsələsi üçün lokal zəif həllərin varlığı və yeganəliyi haqqında aşağıdakı teorem isbat olunub.

Teorem 1. Tutaq ki, aşağıdakı şərtlər ödənilir:

$$M,D,K\in C\left(\Gamma_{2}\right),\ M(x)>0,\ D(x)>0,\ K(x)>0,\ x\in\Gamma_{2}; \qquad (9)$$

$$p>1 \text{ əgər } n=1,2,\ 1<p\le\frac{n}{n-2} \text{ əgər } n\ge 3. \qquad (10)$$

Onda

$$\left.\begin{aligned}&\forall\left(u_{0},\upsilon_{0},\delta_{0}\right)\in H^{1}_{\Gamma_{1}}\left(\Omega_{1}\right)\times H^{1}\left(\Omega_{2}\right)\times L^{2}\left(\Gamma_{2}\right)\\&\forall\left(u_{1},\upsilon_{1},\delta_{1}\right)\in L^{2q_{1}}\left(\Omega_{1}\right)\times L^{2q_{2}}\left(\Omega_{2}\right)\times L^{2}\left(\Gamma_{2}\right)\end{aligned}\right\} \qquad (11)$$

üçün elə $T>0$ ədədi vardır ki, (1)-(8) məsələsinin

$$u \in C\left([0,T];H^1_{\Gamma_1}(\Omega_1)\right),\ u_t \in C\left([0,T];L^2(\Omega_1)\right)\cap L^{q_1+1}(\Omega_1\times(0,T)),$$
$$\upsilon \in C\left([0,T];H^1(\Omega_2)\right),\ \upsilon_t \in C\left([0,T];L^2(\Omega_2)\right)\cap L^{q_2+1}(\Omega_2\times(0,T)),$$
$$\delta,\delta_t \in L^\infty\left(0,T;L^2(\Gamma_2)\right)$$

şərtlərini ödəyən yeganə zəif (u,υ,δ) həlli var; bundan əlavə, əgər $T_{\max}>0$ – (u,υ,δ) həllinin maksimal varlıq intervalının uzunluğudursa, onda aşağıdakı alternativ doğrudur:
ya

$$T_{\max}=+\infty;$$

ya da

$$\lim_{t\to T_{\max}-0}\left(\|u_t\|_1^2+\|\upsilon_t\|_2^2+\|\nabla u\|_1^2+\|\nabla\upsilon\|_2^2+\left\|\sqrt{M}\,\delta_t\right\|_{\Gamma_2}^2+\left\|\sqrt{K}\,\delta\right\|_{\Gamma_2}^2\right)=+\infty$$

bərabərliyi ödənilir.

Birinci fəslin ikinci paraqrafında (1)-(8) məsələsinin lokal güclü həllərinin varlığı və yeganəliyi haqqında aşağıdakı nəticə alınıb.

Teorem 2. Tutaq ki, (9)-(10) şərtləri ödənilir və

$$q_i>1 \text{ əgər } n=1,2;\ 1<q_i\le\frac{n}{n-2} \text{ əgər } n\ge 3\ (i=1,2).$$

Fərz edək ki,

$$p\le\min\{q_1,q_2\}$$

və

$$u_0\in H^1_{\Gamma_1}(\Omega_1)\cap H^2(\Omega_1),\ u_1\in H^1_{\Gamma_1}(\Omega_1)\cap L^{2q_1}(\Omega_1),$$
$$\upsilon_0\in H^2(\Omega_2),\ \upsilon_1\in H^1(\Omega_2)\cap L^{2q_2}(\Omega_2),$$
$$\delta_0,\delta_1\in L^2(\Gamma_2).$$

Onda elə $T>0$ ədədi vardır ki, (1)-(8) məsələsinin yeganə güclü (u,υ,δ) həlli var.

Birinci fəslin üçünci paraqrafında $p\le\min\{q_1,q_2\}$ şərti ödənildikdə (1)-(8) məsələsinin qlobal zəif həllərinin varlığı haqqında aşağıdakı teorem isbat olunub.

Teorem 3. Tutaq ki, Teorem 1-in şərtləri və

$$p \le \min\left\{q_1, q_2\right\}$$

bərabərsizliyi ödənilir. Onda (1)-(8) məsələsinin lokal zəif (u,υ,δ) həlli qlobaldır və T ədədini istənilən qədər böyük götürmək olar.

Birinci fəslin dördünci paraqrafında

$$E(t)=\frac{1}{2}\left[\|u_t\|_1^2+\|\nabla u\|_1^2+\|\upsilon_t\|_2^2+\|\nabla \upsilon\|_2^2+\left\|\sqrt{M}\,\delta_t\right\|_{\Gamma_2}^2+\left\|\sqrt{K}\,\delta\right\|_{\Gamma_2}^2\right]-$$

$$-\frac{1}{p+1}\left(|u|^{p+1},1\right)_1-\frac{1}{p+1}\left(|\upsilon|^{p+1},1\right)_2,$$

energetik funksiyası təyin olunub, burada (u,υ,δ) (1)-(8) məsələsinin zəif həllidir. Bu məsələnin həllərinin sonlu zaman müddətində dağılması haqqında aşağıdakı teorem isbat olunub.

Teorem 4. Tutaq ki,

$$(u_0,\upsilon_0,\delta_0)\in H^1_{\Gamma_1}(\Omega_1)\times H^1(\Omega_2)\times L^2(\Gamma_2),$$

$$(u_1,\upsilon_1,\delta_1)\in L^{2q_1}(\Omega_1)\times L^{2q_2}(\Omega_2)\times L^2(\Gamma_2)$$

və (9), (10) şərtləri ödənilir. Fərz edək ki,

$$p>\max\left\{q_1,q_2\right\},\quad K(x)\ge 1\quad (x\in\Gamma_2),$$

$$0<E(0)<E_1,\ E_1=\alpha_1^2\left(\frac{1}{2}-\frac{1}{p+1}\right),$$

$$\|\nabla u_0\|_1^2+\|\nabla \upsilon_0\|_2^2>\alpha_1^2,\ \alpha_1=B^{-\frac{1}{p-1}},$$

burada B Ω_1, Ω_2 və p-dən asılı müsbət sabitdir. Onda (1)-(8) məsələsinin zəif həlli sonlu zaman müddətində dağılır.

Birinci fəslin beşinci paraqrafında fokuslanmış mənbələrlə olan qeyri-xətti dalğa tənlikləri üçün

$$u=\upsilon\quad (\Gamma_2\times(0,\infty)\text{-da})$$

və

$$\frac{\partial u}{\partial \nu}-\frac{\partial \upsilon}{\partial \nu}+\rho(u_t)=\delta_t\quad (\Gamma_2\times(0,\infty)\text{-da})$$

qeyri-xətti akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinə baxılıb və bu məsələ üçün qeyri-xətti ρ həddi üzərinə qoyulmuş

aşağıdakı şərtlər daxilində lokal zəif həllərin varlığı və yeganəliyi haqqında teorem isbat olunub:

$$\rho \in C^1(-\infty;+\infty),$$

$$|\rho(s)| \le c_5|s|^{q_1} \quad (c_5 > 0);$$

$\rho(s)$ - $(-\infty;+\infty)$-da monoton artan funksiyadır.

Birinci fəslin altıncı paraqrafında fokuslanmış mənbələrlə olan qeyri-xətti güclü dissipativ

$$u_{tt} - \Delta u_t - \Delta u + |u_t|^{q_1-1}u_t = f(u) \quad (\Omega_1 \times (0,\infty)\text{-da}),$$

$$\upsilon_{tt} - \Delta \upsilon_t - \Delta \upsilon + |\upsilon_t|^{q_2-1}\upsilon_t = g(\upsilon) \quad (\Omega_2 \times (0,\infty)\text{-da})$$

dalğa tənlikləri üçün

$$M\delta_{tt} + D\delta_t + K\delta = -u_t,$$

$$u = \upsilon,$$

$$\delta_t = \frac{\partial u}{\partial \nu} - \frac{\partial \upsilon}{\partial \nu} + \frac{\partial u_t}{\partial \nu} - \frac{\partial \upsilon_t}{\partial \nu}$$

($\Gamma_2 \times (0,\infty)$-da) akustik qoşmalıq şərtli başlanğıc-sərhəd məsələsinin lokal zəif həllərinin varlığı və yeganəliyi haqqında teorem isbat olunub.

İkinci fəsil üç paraqrafdan ibarətdir. İkinci fəslin birinci paraqrafında fokuslanmamış qeyri-xətti mənbələrlə olan və akustik qoşmalıq şərtli (12), (13), (3)-(8) qarışıq məsələsinə baxılmışdır:

$$u_{tt} - \Delta u + g_1(u_t) + f_1(u) = 0 \quad \Omega_1 \times (0,\infty)\text{-da}, \tag{12}$$

$$\upsilon_{tt} - \Delta \upsilon + g_2(\upsilon_t) + f_2(\upsilon) = 0 \quad \Omega_2 \times (0,\infty)\text{-da}. \tag{13}$$

Fərz olunur ki, aşağıdakı şərtlər ödnilir:

$$g_i \in C^1(R) \quad (i = 1,2)$$

və elə k_{i1}, k_{i2}, $k_{i3} > 0$ $(i = 1,2)$ sabitləri var ki,

$$|g_i(s)| \le k_{i1}|s|^q, \text{ əgər } |s| > 1 \text{ və } |g_i(s)| \le k_{i2}|s|, \text{ əgər } |s| \le 1, \tag{14}$$

burada q $n \geq 3$ olduqda $1 \leq q \leq \dfrac{n+2}{n-2}$ bərabərsizliyini və $n \leq 2$ olduqda $q \geq 1$ bərabərsizliyini ödəyir;

$$\forall s \in R \text{ üçün } g_i'(s) \geq k_{i3} > 0; \tag{15}$$

$$f_i \in C^1(R),\ i = 1,2$$

və elə $c_{i1}, c_{i2}, \bar{c}_{i1}, \bar{c}_{i2} > 0$ $(i = 1,2)$ sabitləri vardır ki,

$$|f_i(s)| \leq c_{i1}|s|^p + c_{i2}, \quad |f_i'(s)| \leq \bar{c}_{i1}|s|^{p-1} + \bar{c}_{i2}, \tag{16}$$

burada $1 \leq p \leq \dfrac{n}{n-2}$, əgər $n \geq 3$ və $p \geq 1$, əgər $n \leq 2$;

$\forall s \in R^+,\ l_i > 1,\ i = 1,2$ üçün:

$$0 \leq F_i(s) = \int_0^s f_i(s)ds \leq \frac{1}{l_i + 1} s f_i(s)\ . \tag{17}$$

(12), (13), (3)-(8) məsələsinin qlobal güclü həllərinin varlığı və yeganəliyi haqqında aşağıdakı teorem isbat olunub.

Teorem 5. Tutaq ki, (9), (14)-(17) şərtləri ödənilir. Fərz edək ki,

$$u_0 \in H^1_{\Gamma_1}(\Omega_1) \cap H^2(\Omega_1),\ u_1 \in H^1_{\Gamma_1}(\Omega_1) \cap L^{2q}(\Omega_1),$$

$$\upsilon_0 \in H^2(\Omega_2),\ \upsilon_1 \in H^1(\Omega_2) \cap L^{2q}(\Omega_2),$$

$$\delta_0, \delta_1 \in L^2(\Gamma_2).$$

Onda ixtiyari $T > 0$ üçün (12), (13), (3)-(8) məsələsinin yeganə güclü həlli var, yəni elə (u, υ, δ) həlli var ki,

$$u, u_t \in L^\infty\left(0,T; H^1_{\Gamma_1}(\Omega_1)\right),\ u_{tt} \in L^\infty\left(0,T; L^2(\Omega_1)\right),$$

$$\upsilon, \upsilon_t \in L^\infty\left(0,T; H^1(\Omega_2)\right),\ \upsilon_{tt} \in L^\infty\left(0,T; L^2(\Omega_2)\right),$$

$$u(t,\cdot) \in H(\Delta, \Omega_1),\ \upsilon(t,\cdot) \in H(\Delta, \Omega_2) \quad (0,T)\text{-da s.h.y.},$$

$$\delta, \delta_t, \delta_{tt} \in L^\infty\left(0,T; L^2(\Gamma_2)\right)$$

və

$$u_{tt} - \Delta u + g_1(u_t) + f_1(u) = 0 \quad \Omega_1 \times (0,T)\text{-da s.h.y.},$$

$$\upsilon_{tt} - \Delta \upsilon + g_2(\upsilon_t) + f_2(\upsilon) = 0 \quad \Omega_2 \times (0,T)\text{-da s.h.y.},$$

$$\gamma_0(u_t)+M\delta_{tt}+D\delta_t+K\delta=0\,,\ \gamma_0(u)=\gamma_0(\upsilon)\ \ \Gamma_2\times(0,T)\text{-da s.h.y.},$$

$\forall\varphi\in H^1_{\Gamma_1}(\Omega_1)$ üçün

$$\langle\gamma_1(u(t)-\upsilon(t)),\gamma_0(\varphi)\rangle_{H^{-1/2}(\Gamma_2)\times H^{1/2}(\Gamma_2)}=(\delta_t(t),\gamma_0(\varphi))_{\Gamma_2}\ \ (0,T)\text{-da s.h.y.},$$

$$u(x,0)=u_0(x),\ u_t(x,0)=u_1(x)\ \ \Omega_1\text{-də s.h.y.},$$

$$\upsilon(x,0)=\upsilon_0(x),\ \upsilon_t(x,0)=\upsilon_1(x)\ \ \Omega_2\text{-də s.h.y.},$$

$$\delta(x,0)=\delta_0(x),\ \delta_t(x,0)=\delta_1(x)\ \ \Gamma_2\text{-də s.h.y.}$$

İkinci fəslin ikinci paraqrafında (12), (13), (3)-(8) məsələsinin qlobal güclü həllərinin eksponensial azalması haqqında aşağıdakı teorem isbat olunmuşdur.

Teorem 6. Tutaq ki, (u,υ,δ) (12)-(13), (3)-(8) məsələsinin qlobal güclü həllidir və

$$E(t)=\frac{1}{2}\Big[\|u_t\|_1^2+\|\nabla u\|_1^2+\|\upsilon_t\|_2^2+\|\nabla\upsilon\|_2^2+$$

$$+(F_1(u),1)_1+(F_2(\upsilon),1)_2+\left\|\sqrt{M}\,\delta_t\right\|_{\Gamma_2}^2+\left\|\sqrt{K}\,\delta\right\|_{\Gamma_2}^2\Big].$$

Onda Teorem 5-in şərtləri daxilində elə a və b müsbət sabitləri vardır ki, $\forall t\geq 0$ üçün

$$E(t)\leq a\exp(-bt)$$

bərabərsizliyi doğrudur.

İkinci fəslin üçüncü paraqrafında $\Omega\subset R^3$ oblastında akustik qoşmalıq şərtli aşağıdakı qarışıq məsələyə baxılıb:

$$u_{tt}-\Delta u+\alpha_1 u_t+u+f_1(u)=0\qquad \Omega_1\times(0,\infty)\text{-da,}\tag{18}$$

$$\upsilon_{tt}-\Delta\upsilon+\alpha_2\upsilon_t+\upsilon+f_2(\upsilon)=0\qquad \Omega_2\times(0,\infty)\text{-da,}\tag{19}$$

$$\delta_{tt}+\beta\delta_t+\delta=-u_t\qquad \Gamma_2\times(0,\infty)\text{-da,}\tag{20}$$

$$u=0\qquad \Gamma_1\times(0,\infty)\text{-da,}\tag{21}$$

$$u=\upsilon\,,\ \delta_t=\frac{\partial u}{\partial\nu}-\frac{\partial\upsilon}{\partial\nu}\qquad \Gamma_2\times(0,\infty)\text{-da,}\tag{22}$$

$$\left.\begin{aligned} u(x,0)=u_0(x),\ u_t(x,0)=u_1(x),\ x\in\Omega_1, \\ \upsilon(x,0)=\upsilon_0(x),\ \upsilon_t(x,0)=\upsilon_1(x), x\in\Omega_2, \end{aligned}\right\} \tag{23}$$

$$\delta(x,0)=\delta_0(x),\ \delta_t(x,0)=\frac{\partial u_0}{\partial \nu}-\frac{\partial \upsilon_0}{\partial \nu}\equiv\delta_1(x),\quad x\in\Gamma_2, \tag{24}$$

burada $\alpha_i>0\ (i=1,2)$ və $\beta>0$ sabitlərdir; $f_i:\ R\to R,\ i=1,2$ verilmiş funksiyalardır; fərz olunur ki, $f_i\in C^1(R)$, $i=1,2$ və elə $c_{1i}\geq 0$, $i=1,2$ sabitləri vardır ki,

$$|f_i'(s)|\leq c_{1i}\left(1+s^2\right),\ i=1,2 \tag{25}$$

bərabərsizlikləri doğrudur, həmçinin

$$\liminf_{|s|\to\infty}\frac{f_i(s)}{s}>-1,\ i=1,2 \tag{26}$$

bərabərsizlikləri ödənilir; həllin hamarlığının isbatı üçün f_i funksiyalarının kəsilməz diferensiallanması və (25) şərti əvəzinə daha güclü şərt istifadə olunub: $f_i\in C^2(R)$, $i=1,2$ və elə $c_{2i}\geq 0$, $i=1,2$ sabitləri vardır ki,

$$|f_i''(s)|\leq c_{2i}\left(1+|s|\right),\ c_{2i}\geq 0 \tag{27}$$

bərabərsizlikləri doğrudur.

Aşağıdakı kimi faza fəzası daxil olunub:

$$V=\Big\{w=(w_1,w_2,w_3,w_4,w_5,w_6):\ w_1\in H^1_{\Gamma_1}(\Omega_1),w_2\in L^2(\Omega_1),$$
$$w_3\in H^1(\Omega_2),w_4\in L^2(\Omega_2),w_5\in L^2(\Gamma_2),w_6\in L^2(\Gamma_2),w_1\big|_{\Gamma_2}=w_3\big|_{\Gamma_2}\Big\};$$

bu fəza $\forall w=(w_1,w_2,w_3,w_4,w_5,w_6)\in V$ üçün

$$\|w\|_V^2=\|w_1\|^2_{H^1_{\Gamma_1}(\Omega_1)}+\|w_2\|^2_{L^2(\Omega_1)}+\|w_3\|^2_{H^1(\Omega_2)}+\|w_4\|^2_{L^2(\Omega_2)}+$$
$$+\|w_5\|^2_{L^2(\Gamma_2)}+\|w_6\|^2_{L^2(\Gamma_2)}$$

bərabərliyi ilə təyin olunan normaya görə Hilbert fəzasıdır və (18)-(24) başlanğıc-sərhəd məsələsi

$$\begin{cases} w_t=Aw+\Phi(w), \\ w(0)=w_0 \end{cases} \tag{28}$$

şəklində yazılıb, burada

$$w=(u,u_t,\upsilon,\upsilon_t,\delta,\delta_t),\ w_0=(u_0,u_1,\upsilon_0,\upsilon_1,\delta_0,\delta_1),$$
$$A:D(A)\subset V\to V,$$
$$Aw=\big(w_2,\Delta w_1-w_1-\alpha_1 w_2,w_4,\Delta w_3-w_3-\alpha_2 w_4,$$
$$w_6,-w_2\big|_{\Gamma_2}-w_5-\beta w_6\big),$$
$$D(A)=\Big\{w=(w_1,w_2,w_3,w_4,w_5,w_6)\in V:\Delta w_1\in L^2(\Omega_1),w_2\in H^1(\Omega_1),$$
$$\Delta w_3\in L^2(\Omega_2),w_4\in H^1(\Omega_2),w_2\big|_{\Gamma_2}=w_4\big|_{\Gamma_2},w_6=w_{1\nu}\big|_{\Gamma_2}-w_{3\nu}\big|_{\Gamma_2}\Big\},$$

$w_{i\nu}$ $(i=1,2)$ – w_i funksiyasının ν normalı istiqamətindəki törəməsidir ($w_6=w_{1\nu}\big|_{\Gamma_2}-w_{3\nu}\big|_{\Gamma_2}$ şərti zəif mənada, yəni $\varphi\big|_{\Gamma_2}=\psi\big|_{\Gamma_2}$ olmaqla $\forall\varphi\in H^1_{\Gamma_1}(\Omega_1)$, $\forall\psi\in H^1(\Omega_2)$ üçün

$$\int_{\Omega_1}(\Delta w_1\varphi+\nabla w_1\nabla\varphi)dx+\int_{\Omega_2}(\Delta w_3\psi+\nabla w_3\nabla\psi)dx=\int_{\Gamma_2}w_6\varphi\,d\Gamma_2$$

bərabərliyinin ödənilməsi kimi şərh olunur),

$\forall w\in V$ üçün

$$\Phi:V\to V,\ \ \Phi(w)=(0,-f_1(w_1),0,-f_2(w_3),0,0).$$

Güclü həllərə baxmaq üçün

$$V_1=\Big\{w=(w_1,w_2,w_3,w_4,w_5,w_6)\in\big(H^1_{\Gamma_1}(\Omega_1)\cap H^2(\Omega_1)\big)\times$$
$$\times H^1(\Omega_1)\times H^2(\Omega_2)\times H^1(\Omega_2)\times H^{1/2}(\Gamma_2)\times H^{1/2}(\Gamma_2):$$
$$w_1\big|_{\Gamma_2}=w_3\big|_{\Gamma_2},w_2\big|_{\Gamma_2}=w_4\big|_{\Gamma_2},w_6=w_{1\nu}\big|_{\Gamma_2}-w_{3\nu}\big|_{\Gamma_2}\Big\},$$

faza fəzası da daxil olunub; bu fəza

$$\|w\|^2_{V_1}=\|w_1\|^2_{H^1_{\Gamma_1}(\Omega_1)\cap H^2(\Omega_1)}+\|w_2\|^2_{H^1(\Omega_1)}+\|w_3\|^2_{H^2(\Omega_2)}+\|w_4\|^2_{H^1(\Omega_2)}+$$
$$+\|w_5\|^2_{H^{1/2}(\Gamma_2)}+\|w_6\|^2_{H^{1/2}(\Gamma_2)}$$

normasına nəzərən Hilbert fəzasıdır

(28) məsələsinin zəif həllinin tərifi daxil olunub.

Tərif 8. Tutaq ki,

$$w_0 = (u_0, u_1, \upsilon_0, \upsilon_1, \delta_0, \delta_1) \in V .$$

Əgər $\forall t \geq 0$ üçün

$$w(t) = e^{At} w_0 + \int_0^t e^{A(t-s)} \Phi(w(s)) ds$$

bərabərliyi doğru olarsa, onda $w \in C^0([0,\infty); V)$ funksiyası (28) məsələsinin zəif həlli adlanır.

Aşağıdakı kimi funksional daxil olunub:

$$E_w(t) = \frac{1}{2} \|w\|_V^2 + \int_{\Omega_1} F_1(w_1) dx + \int_{\Omega_2} F_2(w_3) dx , \qquad (29)$$

burada $F_i(s) = \int_0^s f_i(s) ds$, $i = 1,2$.

(28) və ya (18)-(24) məsələsi üçün əsas nəticələr aşağıdakı teoremlərdə verilib (qlobal attraktorun varlığının isbatı müvafiq energetik tənliyin istifadəsinə əsaslanır).

Teorem 7. Tutaq ki, (25), (26) şərtləri ödənilir və $w_0 \in V$. Onda (28) məsələsinin yeganə zəif

$$w \in C^0([0,\infty); V)$$

həlli var. Bundan əlavə, əgər $\overline{w}_1$ və $\overline{w}_2$ - (28) məsələsinin $\|\overline{w}_{10}\|_V \leq r$ və $\|\overline{w}_{20}\|_V \leq r$ $(r > 0)$ şərtlərini ödəyən $\overline{w}_{10}$ və $\overline{w}_{20}$ başlanğıc verilənlərinə uyğun həlləridirsə, onda r -dən asılı elə müsbət θ ədədi vardır ki, $\forall t \geq 0$ üçün

$$\|\overline{w}_2(t) - \overline{w}_1(t)\|_V \leq e^{\theta t} \|\overline{w}_{20} - \overline{w}_{10}\|_V$$

bərabərsizliyi ödənilir. Əgər əlavə olaraq, f_i , $i = 1,2$ funksiyaları (27) şərtlərini də ödəyərsə və $w_0 \in V_1$ olarsa, onda uyğun zəif həll

$$w \in C^1([0,\infty); V) \cap C^0([0,\infty); V_1)$$

hamarlıq xassəsinə malikdir (və ”güclü” həll adlanır).

İsbat olunub ki, (28) məsələsinin hər bir zəif $w = (u, u_t, \upsilon, \upsilon_t, \delta, \delta_t)$ həlli üçün

$$\frac{dE_w}{dt} = -\alpha_1 \|u_t\|_1^2 - \alpha_2 \|\upsilon_t\|_2^2 - \beta \|\delta_t\|_{\Gamma_2}^2 \quad (E_w(\cdot) \in C^1([0,\infty))),$$

energetik bərabərliyi doğrudur, buradakı $E_w(t)$ funksionalı (29)-da daxil olunub.

Nəticə 1. Tutaq ki, (25), (26) şərtləri ödənilir. Onda (28) sistemi V faza fəzasında

